Ədəbiyyat QƏZETİ

3 iyul / 2021

# İsa CAVADOĞLU - 90



Hörmətli İsa müəllim!

Sizi 90 illik yubileyiniz münasibətilə təbrik edirik!

Siz bədii yaradıcılığa ötən əsrin 50-ci illərində gəlmisiniz. İlk qələm təcrübələriniz mətbuatda dərc olunmuşdur. "Mən ulu tarixəm", "Ya qismət", "Ömrün yolları", "Daha payızdı", "Düşüncələr", "Ata yurdum", "Məktəbə qayıdan oğlan", "Tənha Qoca" adlı kitablarınız işıq üzü görmüş, oxucular tərəfindən maraqla qarşılanmışdır.

Siz 1954-cü ildə Gəncə Dövlət Pedaqoji İnstitutunun filologiya fakültəsini bitirmisiniz. Uzun illər pedaqoji fəaliyyətlə məşğul olmusunuz. Publisistik, elmi-metodik məqalələriniz mətbuatda dərc edilmişdir.

Hörmətli İsa müəllim!

Sizi bir daha yubileyiniz münasibətilə bir daha təbik edir, sizə uzun ömür, cansağlığı, yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**